**Haqverdiyeva Leyla Ibrahim qızı**

# AŞIQ ƏLƏSGƏRIN "DAĞLAR" QOŞMASININ TƏDRISINƏ DAIR

Azərbaycan ədəbiyyatı tarixən çox qədimdir. İstər şifahi, istərsə də yazılı qolu müəyyən mərhələlərdən, qadağalardan, repressiyalardan keçərək inkişaf etmiş və etməkdədir. Azərbaycan folklorunun və ədəbiyyatının zənginliyi ilə fərqlənən ən böyük qolu aşıq poeziyası və aşıq yaradıcılığıdır.

Azərbaycan xalqına məxsus olan xalq yaradıcılığı ancaq xalqa məxsus olan şəriksiz yaradıcılıq sahəsidir. Qüdrətli el sənətkarlarının yaratdığı əsərlər aşıqlarımızın repertuarında geniş yer tutmuş, şənliklərin, məclislərin bəzəyinə çevrilmişdir.

Azərbaycan aşıq sənəti, milli aşıq poeziyası tarixində şərəfli yer tutan sənətkarlardan biri də Aşıq Ələsgərdir. Xalqımızın öz sazı və sözü ilə 80 ildən artıq xidmət edən Dədə Ələsgər yalnız qüdrətli şair-aşıq kimi yox, həm də tanıyanların qəlbində bir ocaq, pir, bir övliya kimi heykəlləşmişdir.

Məhz bütün bu xüsusiyyətləri nəzərə alaraq aşığın həyat və yaradıcılığı orta məktəblərin proqram və dərsliklərinə salınmışdır.

Lakin aşıq poeziyası şifahi xalq ədəbiyyatının özülü olmasına baxmayaraq aşığın həyat və yaradıcılığına ancaq VIII və X siniflərin proqram və dərsliklərində rast gəlinir.

VIII sinifdə- "Dağlar" qoşmasına üç saat vaxt ayrılmışdır. Birinci saat; əsərin məzmunu üzrə iş, İkinci saat;əsərin təhlili üzrə iş, Üçüncü saat; tətbiq,müzakirə, yaradıcı iş.

X sinifdə- Birinci saat;Aşıq Ələsgərin həyat və yaradıcılıq yolu, ikinci saat; əsərin məzmunu üzrə iş, üçüncü saat;təhlil üzrə iş.

Ənənəvi üsulla tərtib olunmuş dərsliklərimizdə də aşığın həyat və yaradıcılığına müəyyən dərəcədə yer verilmişdir. Lakin müasir dərsliklərimizdə aşığın həyat və yaradıcılığına bir qədər fərqli baxış bucağı altında yanaşılır. Müasir dövrün tələbi olaraq dərs prosesində fəal/interaktiv təlim metodlarından istifadə olunur. Biliklər şagirdlərə hazır şəkildə deyil, fəal axtarış və kəşflər zamanı mənimsəyirlər.

Hazırki dərs prosesində şagirdlər aşığın həyat və yaradıcılığını öyrənərkən müstəqil tədqiqata cəlb olunurlar.

X sinifdə A.Ələsgərin həyat və yaradıcılığı haqqında daha geniş məlumat verilmişdir. Baxmayaraq ki, VIII sinifdə aşığın ancaq "Dağlar" şeiri üstündə dərs aparılırdısa, ancaq müəllim motivasiya mərhələsində və evə tapşırıq verərkən aşığın həyatı haqqında müəyyən məlumatlar verərək şagirdləri istiqamətləndirə və ev tapşırığında verilən istiqamətdə müxtəlif mənbələrdən istifadə etməklə öyrəndikləri bilikləri genişləndirə bilərlər.

Artıq X sinifdə müəllim mövzuya giriş edərkən müzakirə zamanı şagirdlərin A.Ələsgər ilə bağlı biliklərin aşkara çıxarılması ilə başlayır.Şagirdlər dərslikdəki tapşırıq ("A.Ələsgərlə bağlı bildiklərinizi yada salıb yığcam müzakirə aparın") üzərində düşünməyi təklif edə bilər. Müzakirənin sonunda araşdırılacaq problem müəyyənləşdirilir; A.Ələsgər aşıq sənətimizin inkişafına hansı töhfələri vermişdir?

Şagirdlər birinci dərsdə A.Ələsgərin həyat və yaradıcılığı haqqında daha önəmli sayıla biləcək məqamlar haqqında məlumat əldə edirlər. Ev tapşırığında isə sinifdə öyrəndiklərini göstərilən mənbələrdən və əlavə məlumatlardan istifadə etməklə öyrəndiklərini zənginləşdirməyi tapşırılır. Şagirdlərin ev tapşırığının icrası zamanı müəllimin onları istiqamətləndirməsi ilə daha yaxşı nəticə əldə etmiş olar. Məsələn, Aşıq sənətinin və şeirinin inkişafında A.Ələsgərin hansı xidmətlərinin olduğunu, A.Ələsgər və M.P.Vaqifin qoşmalarının hansı cəhətlərinə görə müqayisə oluna biləcəyi istiqamətdə araşdırmanın aparılmasını məsləhət görə bilər.

Artıq ikinci saatda sənətkarın "Dağlar" qoşmasına keçid edilir.Qoşmaya iki saat vaxt ayrılmışdır. Birinci saat; məzmun üzrə iş, ikinci saat; təhlil üzrə iş.

"Dağlar" qoşmasının tədrisinin birinci saatında əsas məqsəd şagirdlərdə qoşmanın məzmunu üzrə iş aparmaq, tanış olmayan sözlərin mənasını, mənşəyini və işlənmə məqamına görə izah etmək və şeirdə məcazları müəyyənləşdirməkdir.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdə işi fərqli məzmunda və formada təşkil etmək mümkündür. Artıq bu müəllimin mövzuya yaradıcı yanaşmasından asılıdır. Şagirdlərin səkkizinci sinifdə öyrəndikləri "Dağlar" qoşmasının ideya-məzmunu üzrə söhbət və ya müsahibə aparıla bilər. Moivasiyanın bir variantı da internetdən istifadə ilə qoşmanın ifadəli oxusunun dinlənilməsi ola bilər. Müəllim bu mərhələnin sonunda yığcam müsahibə apardıqdan sonra tədqiqat sualını formalaşdırır.

**Tədqiqat sualı.** Aşıq öz qoşmasında vətənin dar günündə dağların fərqli vəziyyətini necə təsvir edib?

Fərziyyələrin dinlənilməsinə və qeyd edilməsinə müəyyən vaxt ayrılır.

**Tədqiqatın aparılması.** Burada artıq diqqət şeirin məzmununun öyrənilməsinə fikir verilir. Yaxşısı budur ki, bütün sinfin iştirakının nəzərə alınması üçün ziqzaq iş formasından istifadə olunsun. Kiçik qruplarda birləşən şagirdlərə ayrı-ayrı bir bənd verilir və bu bəndlərdə verilən misraların məzmunu, tanış olmayan sözlər və məcazlarla bağlı qənaətlərini bölüşür, müəyyən suallara cavab axtarılır. Suallar aşağıdakı formada verilə bilər;

1.Baharda dağların aldığı mənzərə qoşmada necə təsvir olunub?

2.Dağların pərişan halı şeirdə necə təsvir edilib?

3.El üçün, igid üçün arxa, dayaq rəmzi sayılan dağların xoş günlərdəki vəziyyəti necə xatırladılır?

Hər qrup verilən müəyyən vaxt ərzində işini tamamladıqdan sonra müəllim mövcud qrupları parçalayaraq yeni qruplar təşkil edir. Yeni qruplarda hər şagird əvvəlki qrupda öyrəndiyi bənd haqqında öyrəndiklərini bölüşür. Bu iş formasından istifadə etməklə müəllim bütün sinfi tədqiqata cəlb edə bilir. Kiçik qrupların təqdimatı əsasında **məlumat mübadiləsi və müzakirəsi** aparılır, təqdimatlar dinlənilir.

**Nəticələrin çıxarılması, ümumiləşdirmə** şagirdlərin fəal iştirakı ilə həyata keçirilir. Bu mərhələnin uğurlu alınmasının müəllimin verdiyi istiqamətləndirici sualların əhəmiyyəti böyükdür.

**Qiymətləndirmə** müəyyənləşdirilmiş qrup meyarları əsasında aparılır. Müəllim sonda "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməyini şagirdlərə xatırladır.

Üçüncü saat artıq şeirin təhlili üzrə isə ayrılır. Bu dərs saatında əsas məqsəd şagirdlərin qoşmanın mövzu, ideya-bədii xüsusiyyətlərinin bağlı olduğu dövrün mənəvi dəyərləri konteksindən çıxış etməklə təhlil edib nəticə çıxarmaq, şeirdəki lirik qəhrəmanı təhlil etməkdir. Ev tapşırığının yoxlanılmasından sonra, artıq yeni dərsə keçid edilir.

Dərsin ilk mərhələsi **motivasiya, problemin qoyuluşu** ilə başlanılır. Müzakirə əsasında motivasiyanı qurmağı özünə məqsəd qoyan müəllim əvvəlki dərsdə şagirdlərin əldə etdikləri biliklərə söykənərək yığcam müzakirə aparır. Müzakirədə müəllim qoşmada şagirdlərin diqqətini ən çox nəyin çəkdiyini öyrənmək üçün; Şeirdə diqqətinizi daha çox cəlb edən nə oldu? Sualı ilə şagirdlərin fəallığını təmin edə bilər. Müzakirə tədqiqat sualının formalaşdırılması ilə başa çatır. Variantlardan birində müəyyən internet materiallarından istifadə etməklə A.Ələsgər haqqında videoçarxların göstərilməsi və bunun əsasında müsahibənin aparılması ola bilər.Bundan sonra digər mərhələyə keçid edilir, tədqiqat sualı qoyulur. Bu mərhələdə şeirdəki əsas ideya ortaya çıxarılır.Müəllim tədqiqat sualı kimi; A.Ələsgərin ikinci "Dağlar"qoşmasında başlıca ideya nədir? Sualını qoya bilər. Fərziyyələr dinlənildikdən sonra tədqiqatın aparılması mərhələsinə keçid edilir. Bu mərhələdə dərslikdəki suallara əsaslanmaqla (Qoşma hansı mövzuda yazılıb? Aşığın dağlara ikinci əsər həsr etməsinə səbəb nə olmuşdur? Qoşmanın bədiiliyini təmin edən vasitələr hansılardır?) mətnin oxusu ilə araşdırmaya başlanılır. Oxunu fərqli formalarda aparmaq olar.

"Dağlar" qoşmasının tədrisi şagirdlərdə sənətkarın şəxsiyyəti, vətənpərvərliyi, el-oba dərdi çəkən insan olması barədə təsəvvür yaradır. Aydın olur ki, aşıq yalnız elin şad günündə şənliklərdə, toylarında deyil, həm də onun dar günündə öz xalqı ilə birlikdədir. El üçün yanan aşıq dağlara xitabən dediyi sözlərdə xalqın dərdini, kədərini ifadə edir. El-obanın doğma yurd yerlərindən pərən-pərən olub dağıldığını, hərənin bir yerə sığındığını görən aşıq sanki elsiz yaşadığı üçün xəcalət çəkir, özünü qınayır;

Arsız aşıq elsiz niyə yaşadı?!
Ölsün Ələsgərtək qulların, dağlar!

Müəllim mənbələr üzrə iş zamanı şagirdləri elə istiqamətləndirməlidir ki, qoşmada "Dağların" yalnız təbiət mövzusunda deyil, həmdə ictimai motivli qoşma kimi qavramalıdır.

Bir ay yarım novbahardan keçəndə
Car olur köysündən sellərin, dağlar!
Çalxanır dəryalar, cığrışır qazlar,
Zəmzəm zümzüməli göllərin, dağlar!

...Kəpəz, Murov, Qonur-gör neçə dağ var...
Üstünə nur yağsın, ay dəli Qoşqar!
Yayın ortasında yağdırırsan qar,
Səf çəkib üstündə sallanır, dağlar!

Növbəti sualda qoşmanın bədiiliyini təmin edən mühüm vasitələr haqqında şagirdlərdə müəyyən anlayışlar formalaşdırılır. Bütün bunlardan sonra şagirdlərə məlum olur ki, aşığın yaradıcılığı üçün xəlqilik, həyat həqiqətlərinə sadiqlik səciyyəvidir. O, dağların xoş günlərini də, çətin məqamlarını da təsirli bir dillə, canlı, heyratəmiz təsvirlərləəks etdirməyi bacarır. Aşıq şəxsləndirmədən, bədii təsvir və ifadə vasitələrindən istifadə edərək xalqın taleyindəki ağır dövrü, vətənin insanları kimi təbiətinin də soyqırıma məruz qaldığını inandırıcı bir dillə əks etdirmişdir.

Bütün qazanılmış biliklırdən istifadə etməklə məlumat mübadiləsi və müzakirəsi aparılır. Bu mərhələdə bədii əsərə müraciət olunmasına xüsusi diqqət verilməlidir.

**Nəticələrin çıxarılması, ümumiləşdirilmənin aparılması** mərhələsi şagirdlərin fəallığı əsasında yerinə yetirilir.

**Qiymətləndirilmə** mərhələsi – təhliletmə, aydınlaşdırma, münasibətbildirmə, nəticəçıxarma kimi meyarlar əsasında şagirdlərin formativ qiymətləndirilməsi yerinə yetirilir.

M.Araz A.Ələsgər haqqında belə demişdir; "Ələsgər sazı, Ələsgər sözü Azərbaycan xalqı üçün bu əsrə yaxın böyük bir ədəbiyyat universteti rolunu oynamışdır". Orta məktəblərdə aşığın yaradıcılığının az bir qismi tədris olunsa belə bu az bir qisim yaradıcılıq nümunəsi ilə şagirdləri qısa bir vaxt üçün bu universtetin tələbələrinə çevirə bilir.

**İstifadə olunmuş ədəbiyyat**

1.A.Ələsgər. "Seçilmiş əsərləri". Şərq-Qərb, Bakı-2014
2.Əliyev S, Həsənli B, Mustafayeva A, "Ümumtəhsil məktəblərinin X sinfi üçün ədəbiyyat fənni üzrə dərslik" Bakı, 2017
3.Əliyev S, Həsənli B, Mustafayeva A, "Ümumtəhsil məktəblərinin X sinfi üçün ədəbiyyat fənni üzrə metodik vəsait" Bakı, 2017
4.Xəlilov N. "Heca vəzni və aşıq poeziyasının genezisi və inkişaf tarixindən" Kredo, 2013.07.06
5.Yusifov F. "Ədəbiyyatın tədrisi metodikası" Bakı, 2010

**Açar sözlər:** folklor, aşıq poeziyası, fəal/interaktiv təlim, Aşıq Ələsgər, heca vəzni.
**Ключевые слова;** фольклор, ашугская поэзия, активное / интерактивное обучение, Ашуг Алескер, слогов
**Key words:** folklore, ashug poetry, active/interactive training, Ashig Alasgar, syllable sermon

**Xülasə**

Azərbaycan aşıq poeziyasının əzəmətli zirvələrindən biri olan Aşıq Ələsgər qüdrətli söz ustası idi. A.Ələsgərin həyat və yaradıcılığının orta məktəblərdə tədris olunması şagirdlərin şifahi nitqinin, bədii təfəkkürünün inkişafına nail olunur. Sənətkarın "Dağlar" şeirinin tədrisi ilə şagirdlərdə müstəqil tədqiqatçılıq, müqayisə bacarıqlarının formalaşdırılması ilə bərabər, vətənin dar günündə dağların vəziyyətinin necə təsvir etdiyini, hansı bədii təsvir və

ifadə vasitələrindən istifadə etdiyini öyrənir. Bununla yanaşı, fəal/interaktiv təlim metodlarından istifadə etməklə dərsə yeni istiqamət verilmişdir.

**Резюме**

Ашиг Аласгар, одна из величественных вершин азербайджанской ашугской поэзии, был могучим мастером слов. Обучение жизни и творчества А. Аласгара в общеобразовательных школах - достижение устной речи учащихся, художественного мышления. Изучая стихотворение художника «Горы», она изучает, как описать состояние гор в напряженный день страны, а также опирается на независимые исследования, сравнительные навыки учащихся и использование инструментов художественного выражения и выражения. Кроме того, урок был разработан с использованием активных / интерактивных методов обучения.

**Summary**

Ashig Alasgar, one of the majestic peaks of Azerbaijan ashug poetry, was a mighty master of words. A. Alasgar's life and creativity teaching in secondary schools is the achievement of students' oral speech, artistic thinking. Studying the artist's "Daglar" poem, she learns how to describe the state of the mountains on the tight day of the country, as well as drawing on independent research, comparative skills in the students, and the use of artistic expression and expression tools. In addition, the lesson has been devel- oped with the use of active / interactive teaching methods.

Rəyçi:dos.S.Abbasova